## 1. Ümumi məlumat

**Rəsmi adı:** Portuqaliya Respublikası
**Ərazisi:** 92.090 $km^2$
**Əhalisi:** 10.735.765 nəfər (iyul 2010)
**İnzibati ərazi bölgüsü:** 18 rayon və 2 muxtar region (Aveiro, Acores, Beja, Braga, Braganca, Castelo Branco, Coimbra, Evora, Faro, Guarda, Leiria, Lisboa, Madeira, Portalegre, Porto, Santarem, Setubal, Viana do Castelo, Vila Real, Viseu.
**Pul vahidi:** Avro
**Əsas şəhərlər:** Lissabon (2.100.000 nəfər), Porto, Braqa, Coimbra, Setubal
**Əsas dinləri:** katoliklər – 84.5%, protestantlar 2.2%
**Əsas milli bayramı:** 10 iyun **-** Portuqaliya Günü (1580)
**Konstitusiya:** 25 aprel 1976-cı ildə qəbul edilmişdir
**Dövlət quruluşu:** Parlamentli respublika
**Dövlət başçısı:** Prezident 9 mart 2006-cı il tarixdən Anibal Kavako Silvadır
**Baş Nazir :** 12 mart 2005-ci il tarixdən Jose Sokratesdir 23.03.2011 tarixində istefa vermişdir.
**Nazirlər Şurası** – Baş nazirin tövsiyəsi ilə prezident tərəfindən təyin edilir
**Ali qanunverici orqan:** Birpalatalı Respublika Assambleyasıdır (Assembleia da Republica - 230 yer; üzvlər ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilir).
**Məhkəmə hakimiyyəti:** Ali Məhkəmə
**Siyasi partiyaları:**
Yaşıllar Partiyası (Green Ecologist Party və ya PEV) – Sədr Heloisa Apalonia
Xalq Partiyası (PP) – Sədr Xose Ribeiro e Kastro
Portuqaliya Kommunist Partiyası (PCP) - Sədr Jeronimo de Sousa
Portuqaliya Sosialist Partiyası (PS) - Sədr Xose Sokrates Kavalko Pinto de Sousa
Sosial Demokrat Partiyası (PSD) - Sədr Manuela Ferreira Leite
Sol Blok (BE) - Sədr Frankiso Anakleto Louka
Demokratik Koalisiya (CDU) - Sədr Jeronimo de Sousa

**Sonuncu seçkilərin nəticələri** *(2009-cu ilin 27 sentyabr tarixində keçirilmişdir).*
PS-97,
PSD-81,
CDS-PP-21,
BE-16 yer
CDU-15
Növbəti seçkilər 2013-cü ildə keçiriləcəkdir.

27 sentyabr 2009-cu il tarixində qanunverici hakimiyyətə keçirilən seçkilərdə Jose Sokratesin başçılıq etdiyi müxalifətdə olan sosialistlər səs çoxluğu ilə üstünlük qazanmışlar (97 yer). Hazırkı hökumətin proqramı əsasən təhsilin keyfiyyətinin və ölkənin rəqabət gücünün artırılmasını təmin etməyə yönəlmişdir.
Hökumətin iqtisadi siyasətinin əsas məqsədi "Sabitlik və Artım Paktı"na riayət edilməsi, ictimai fondların şəffaflığının və inkişafının təmin edilməsdir. Sosial sahədə isə xüsusi diqqət qeyri-bərabərliyə qarşı mübarizəyə yönəldilmişdir.

**Hökumətin tərkibi**

| | |
|---|---|
| Baş nazir | |
| Kənd təsərrüfatı, kənd yerlərinin inkişafı və balıqçılıq naziri | Antonio Serrano |
| Mədəniyyət naziri | Gabriela Canavilhas |
| İqtisadiyyat və innovasiya naziri | Vieira da Silva |
| Təhsil naziri | İsabel Alçada |
| Ətraf mühit, ərazi planlaşdırması, regional inkişaf naziri | Simon Bird |
| Maliyyə naziri | Fernando Teixeira dos Santos |
| Xarici işlər naziri | Luis Amado |
| Səhiyyə naziri | Ana Jorge |
| Daxili İdarəçilik naziri | Rui Pereira |
| Ədliyyə naziri | Alberto Martins |
| Milli Müdafiə naziri | Augusto Santos Silva |
| Parlamentlə əlaqələr naziri | Jorge Lacao |
| Sədrlik məsələləri üzrə nazir | Pedro Silva Pereira |
| İctimai işlər, nəqliyyat və rabitə naziri | Antonio Mendonça |
| Elm, texnologiya və ali təhsil naziri | Mariano Gago |
| Əmək və sosial həmrəylik naziri | Helena Andre |
| Nazirlər Şurasının Prezidentliyi üzrə Dövlət Katibi | Joao Tiago Silveira |

## 2. İqtisadiyyat

**İqtisadiyyatın mühüm sahələri:** tekstil və ayaqqabı, taxta, kağız, dəmir emalı, neft emalı, kimya, balıqçılıq, plastik məhsullar, keramika, elektronika və kommunikasiya avadanlıqları, dəmiryolu avadanlıqları, gəmiqayırma, şərabçılıq, turizm və s.
**Kənd təsərrüfatı məhsulları**: üzüm, kartof, pomidor, zeytun, iri və xırda buynuzlu heyvandarlıq məhsulları, donuz əti, quş əti, süd məhsulları, balıq və dəniz məhsulları.
**Ümumi Daxili Məhsul:** $233.4 milyard (2009)
**Ümumi Daxili Məhsulun artımı: -**2.8% (2009)
**Adambaşına düşən Ümumi Daxili Məhsul:** $ 21.800 (2009)
**Sektorların payına düşən Ümumi Daxili Məhsul:** kənd təsərrüfatı: 2.7%, sənaye: 23%, xidmətlər: 74.3% (2009)
**İnflyasiya səviyyəsi:** 0.8% (2009)
**İşsizlik:** 9.5% (2009)

**İxrac:** $43.71 milyard (2009)
**Əsas ixrac tərəfdaşları:** İspaniya-25.69%, Almaniya-12.6%, Fransa-11.1%, Anqola-5.9%, Böyük Britaniya-5.3%, (2008)
**İdxal:** $67.64 milyard (2009)
**Əsas idxal tərəfdaşları:** İspaniya-28.9%, Almaniya-11.6%, Fransa-8%, İtaliya-4.9%, Niderland-4.4% (2008)

## 3.Xarici siyasəti

Portuqaliyanın xarici siyasətində Avro-atlantik məkanda möhkəmlənmək, eyni zamanda keçmiş müstəmləkələrlə və Aralıq dənizi hövzəsi ölkələri ilə əlaqələrin gücləndirilməsi əsas yer tutur. Portuqaliya xarici siyasəti üçün 4 "imtiyazlı tərəfdaş"la (İspaniya, Braziliya, Mərakeş və 2003-cü ildən Fransa) münasibətlərin dərinləşdirilməsi prioritet məsələlərdəndir və onlarla hər il ikitərəfli zirvə toplantıları keçirilir. Portuqaliyanın xarici siyasətində həmçinin aşağıdakı əsas istiqamətləri göstərmək olar:
**- Avropa.** Portuqaliya Avropa İttifaqına 1986-cı ildə daxil olmuşdur və bunun nəticəsində güclü iqtisadi inkişafa nail olmuşdur. Portuqaliya bu təşkilatın genişlənməsinə, eləcə də Türkiyənin Avropa İttifaqına daxil olmasına tərəfdar kimi çıxış edir;
**- Aralıq dənizi hövzəsi.** Avropa İttifaqına daxil olandan sonra Portuqaliya Məğrib ölkələri ilə xüsusən Mərakeşlə əlaqələrin inkişafına diqqəti artırmışdır. Portuqaliya və Mərakeş dövlət başçılarının illik Sammiti təşkil olunur. Portuqaliya Avropa-Aralıq dənizi ölkələri arasında dialoqun inkişaf etdirilməsini dəstəkləyir;
**-Avro-atlantik məkan və təhlükəsizlik məsələləri.** NATO-nun təsis edilməsində iştirak edən dövlətlərdən biri kimi bu təşkilatla əlaqələr daima prioritet məsələlərdən hesab olunur. Eyni zamanda Portuqaliya ABŞ-ın ənənəvi müttəfiqidir və Avropa Təhlükəsizlik və Müdafiə Siyasətinin tərəfdarı kimi çıxış edir;
**- İraq.** Portuqaliya İraq böhranı ilə əlaqədar ABŞ-a dəstək məktubunu imzalayan 8 ölkədən biridir. Həmçinin İraqa 128 jandarmdan ibarət hərbi hissə göndərilmişdir;
**- Afrika. R**əsmi dili portuqal olan Afrika ölkələri ilə əlaqələrin inkişafı Portuqaliyanın maraq dairəsindədir. Portuqaliya Anqolada vətəndaş müharibəsinin sülh yolu ilə həll edilməsində, Mozambikin maliyyə yardımları hesabına dirçəlməsində, Qvineya-Bisauda sabitləşdirilməsi istiqamətində aparılan işlərdə fəal iştirak edərək bu bölgədə mövqelərini möhkəmlətməkdədir;
Portuqaliya Avropa İttifaqı - Afrika Zirvə toplantısının təşəbbüskarıdır;
**- Braziliya.** Braziliya ilə iqtisadi mübadilələrin məhdud səviyyədə olmasına baxmayaraq, Portuqaliyanın ən çox sərmayə qoyduğu ölkədir. Xaricdə olan ən böyük portuqal icması məhz Braziliyadadır;
**- Portuqaldilli Ölkələr Birliyi.** Portuqaliya, 1996-cı ildə yaradılan Portuqaldilli ölkələr Birliyinin hərəkətverici ölkəsidir və birgə əməkdaşlıq layihələri vasitəsilə əlaqələri möhkəmlətməyə çalışır;
**Beynəlxalq mübahisəli məsələlər:** Portuqaliya Olivenza ərazisi üzərində İspaniyanın suverenliyini tanımır.

## 4. İkitərəfli münasibətlər

Portuqaliya Azərbaycanın müstəqilliyini 7 yanvar 1992-ci il tarixində tanımışdır. Azərbaycan və Portuqaliya arasında diplomatik əlaqələr 4 avqust 1992-ci ildə yaradılmışdır.
24 may 1995-ci ildə Portuqaliya Türkiyədəki səfirinin Azərbaycanda akkreditə olunması barədə müraciət etmiş və 16 iyun 1995-ci il tarixində Azərbaycan tərəfinin razılığı verilmişdir.
Portuqaliyanın Türkiyə və eyni zamanda Azərbaycandakı Səfiri Xorxe Alberto Noqeyra de Lemos Godino etimadnaməsini Azərbaycan Prezidentinə 15 fevral 2006-cı il tarixində təqdim etmişdir.
19 noyabr 2008-ci ildə Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və səlahiyyətli səfiri Sabir Ağabəyov iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Portuqaliya Respublikasında Fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

### *Rəsmi əlaqələrin xronikası*

**1994-cü ildə** ATƏM-in Budapeştdə keçirilmiş Zirvə Görüşü zamanı Azərbaycan Prezidenti H.Əliyev Portuqaliyanın Hökumət Başçısı ilə görüşmüşdür.
**1995-ci ilin oktyabr** ayında Azərbaycan Prezidenti H.Əliyev Nyu-York şəhərində Portuqaliyanın Prezidenti Mario Soareşlə görüşmüşdür.
**5-7 iyun 1996-cı il** tarixində Strasburqda Avropa Şurasına üzv ölkələrin Xarici İşlər Nazirlərinin toplantısında Xarici İşlər Naziri H.Həsənov Portuqaliyanın Təşkilat yanında Daimi Nümayəndəsi ilə görüşmüşdür.
**2-3 dekabr 1996-cı il** tarixində Lissabonda keçirilmiş ATƏT-in Zirvə Görüşündə iştirak etmək üçün Prezident H.Əliyev Portuqaliyada səfərdə olmuş və toplantı zamanı Portuqaliyanın Baş Naziri Antonio Quttereslə görüşmüşdür.
**27 noyabr 2000-ci il** tarixində ATƏT-in Xarici İşlər nazirlərinin toplantısında Azərbaycan Xarici İşlər Naziri Portuqaliyanın Xarici İşlər Naziri ilə görüş keçirmişdir.
**17 may 2001-ci il** tarixində Portuqaliyanın Azərbaycana təyin olunmuş Səfiri A.Portuqal Azərbaycan Prezidentinə etimadnamələrini təqdim etmişdir.
**11-12 iyul 2001-ci il** tarixində Portuqaliya Respublikasının Xarici İşlər Naziri J.da Qama Azərbaycana səfər etmişdir.
**26-30 noyabr 2001-ci il** tarixində Avropa Şurası və Portuqaliya Ekologiya Nazirliyinin Lissabonda təşkil etdiyi “Regional layihələr: Avropada ekologiya və mədəni irsin qorunması” beynəlxalq konfrans və seminarlarda Mədəniyyət Nazirinin müavini S. Məmmədəliyeva iştirak etmişdir.
**7 mart 2002-ci ildə** Portuqaliyanın Dövlət Naziri və Xarici İşlər Naziri, ATƏT-in fəaliyyətdə olan Sədri J.da Qama Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı Nazir Prezident, Milli Məclisin Sədri, Baş Nazir, Xarici İşlər Naziri, müxalifət partiyalarının nümayəndələri ilə görüşmüşdür.

**4 avqust 2002-ci il** tarixində Azərbaycan və Portuqaliya arasında diplomatik münasibətlərin 10-cu ildönümü ilə əlaqədar Xarici İşlər Naziri V.Quliyev Portuqaliyalı həmkarı A.M.da Kruza məktub göndərmişdir.
**24 yanvar 2005-ci il** tarixində Azərbaycan Prezidenti İ.Əliyev A.K.Silvaya Portuqaliyanın Prezidenti seçilməsi münasibətilə təbrik məktubu göndərmişdir.
**28 aprel 2005-ci il** tarixində Portuqaliyanın Dövlət və Xarici İşlər Naziri D.F. do Amaral Nazir təyin edilməsi münasibətilə təbriklərinə görə Nazir E.Məmmədyarova təşəkkür məktubu göndərmişdir.
**24 may 2007-ci il** tarixində Portuqaliya Prezidenti A. Kavako Silva Azərbaycan Prezidenti İ. Əliyevə 28 may Respublika Günü münasibətilə təbrik məktubu göndərmişdir.
**27-28 aprel 2008-ci il** tarixlərində AR Prezidenti İ. Əliyevə etimadnamələrin təqdim edilməsi ilə bağlı Portuqaliyanın Azərbaycana yeni təyin edilmiş səfiri cənab Jose Manuel de Karvalo Lameyras Bakıda səfərdə olmuşdur.
**12 aprel 2010-cu il** tarixində AR Xarici İşlər Naziri E.Məmmədyarov Portuqaliyanın Dövlət və Xarici İşlər Naziri Luis Filipe Markez Amaduya Azərbaycana səfər etməyə dəvət məktubu göndərmişdir.
**15 iyul 2010-cu il** tarixində L.Amado Bakıya səfər etmişdir. Səfər zamanı o, Prezident İ.Əliyev və Xarici işlər naziri E.Məmmədyarovla görüşmüşdür.

**Azərbaycan Respublikası və Portuqaliya Respublikası arasında ticarət əlaqələri (min ABŞ $)**

| **İllər** | **İdxal** | **İxrac** | **Dövriyyə** | **Saldo** |
|---|---|---|---|---|
| 2008 | 4566.3 | 260991.8 | 265558.1 | 256425.5 |
| 2009 | 1183.1 | 28456.7 | 29639.8 | 27273.6 |
| 2010 | 29.4 | 87954.4 | 87983.8 | 87925.0 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

## 5. Müqavilə-hüquq bazası

1.“Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Anlaşma Memorandumu”
Arayış: “Azərbaycan Respublikası Hökuməti və Portuqal Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport daşıyıcıları üçün vizaların aradan götürülməsinə dair Saziş” paraflanmışdır. Portuqaliyanın Xarici işlər naziri L.F.M.Amadu 20-24 dekabr 2010-cu il tarixləri arasında Nazir E.Məmmədyarovu Portuqaliyaya səfər etməyə dəvət etmişdir (səfər zamanı arayışda qeyd edilən sazişin imzalanması təklif olunmuşdur).